# Azərbaycanla Türkiyənin enerji zəfəri: TANAP




*12 iyun 2018-ci ildə Türkiyənin Əskişəhərində TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Prezident İlham Əliyev mərasimdə iştirak edib. Qeyd edək ki, Trans-Anadolu qaz kəməri layihəsinin həyata keçirilməsi müstəqil Azərbaycanın tarixində daha bir mühüm mərhələ kimi yadda qalıb. Bu strateji layihənin uğurla reallaşmasında Azərbaycanın və Türkiyənin sarsılmaz əməkdaşlığı, dostluq və qardaşlıq üzərində qurulan münasibətləri həlledici rol oynayıb.*

TANAP Azərbaycanın iqtisadi gücünü və Avropanın enerji təhlükəsizliyinin təminindəki mühüm rolunu bir daha sübut edib. Bu layihə, eyni zamanda ölkəmizin beynəlxalq siyasi və iqtisadi arenada tutduğu mövqeyi və özünəməxsusluğunu da aydın şəkildə ortaya qoyub. Həmin tədbirdə çıxış edən dövlət başçısı bildirib ki, TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür: "TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur".

**(davamı 2-ci səhifədə)**

# Azərbaycanla Türkiyənin enerji zəfəri: TANAP




(əvvəli 1-ci səhifədə)

XXI əsrdə enerji resurslarının təhlükəsiz, davamlı və iqtisadi cəhətdən sərfəli şəkildə dünya bazarlarına çatdırılması beynəlxalq münasibətlər sistemində əsas prioritetlərdən birinə çevrilib. 2012-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP (Trans-Anadolu Təbii Qaz Boru Kəməri) layihəsinə imza atılıb. TANAP yalnız Azərbaycan üçün deyil, Avropa və ümumilikdə Avrasiya üçün strateji əhəmiyyət daşıyan enerji layihəsidir. Layihə Azərbaycanın enerji diplomatiyasının real nəticəsi, regionda sabitlik və əməkdaşlıq üçün mühüm infrastrukturdur. Boru kəməri "Şahdəniz-2" qaz yatağından Azərbaycanda hasil olunan təbii qazını Türkiyəyə və öz növbəsində bu ölkədən Avropaya daşıyır. TANAP "Cənub Qaz Dəhlizi"nin əsas hissəsidir və Azərbaycan qazının Avropa bazarına çıxışını təmin edən ən uzun və ən iri həcmli seqmentdir. TANAP Gürcüstan-Türkiyə sərhədindən başlayaraq, Türkiyənin 20-dən çox vilayətini keçərək Yunanıstan sərhədində Trans-Adriatik Boru Kəməri (TAP) ilə birləşir. Bu marşrut boyunca Azərbaycan qazı həm Türkiyənin daxili bazarını təmin edir, həm də Avropaya nəql olunur. Layihə çərçivəsində ümumi uzunluğu 1812 kilometr olan boru kəməri inşa olunub. TANAP-ın illik ötürmə qabiliyyəti ilkin mərhələdə 16,2 milyard kubmetr təşkil edib və bu göstərici gələcəkdə 31 milyard kubmetrə qədər artırıla bilər. Bu ilin yanvar-mart aylarında Azərbaycan TANAP ilə 1,4 milyard kubmetrə yaxın qaz nəql edib.

Azərbaycanın zəngin təbii qaz ehtiyatlarının Avropa bazarlarına çatdırılması uzun illərdir beynəlxalq müzakirələrin mövzusu olub. Müxtəlif platformalarda aparılan danışıqlar və keçirilən beynəlxalq tədbirlər bu istiqamətdə mühüm fikir mübadilələrinə yol açsa da, təəssüf ki, konkret nəticələr əldə olunmayıb. Məhz bu vəziyyətdə, qardaş Türkiyə və Azərbaycan öz təşəbbüslərini önə çıxararaq, 2012-ci ildə TANAP layihəsini irəli sürüb.




TANAP üzrə Anlaşma Memorandumu 2012-ci ildə İstanbul şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanıb. Həmin gün keçirilən imzalanma mərasimində tərəflər layihənin strateji əhəmiyyətindən danışaraq, onun uğurla həyata keçiriləcəyinə dərin inam ifadə ediblər. Bu günə gəldikdə isə, bu layihənin reallaşması məhz o vaxtlar qurulan siyasi iradənin və məqsədyönlü əməkdaşlığın nəticəsi olub.

Texniki və maliyyə baxımından son dərəcə mürəkkəb olan TANAP layihəsi illər ərzində uğurla icra olunub. Layihənin reallaşması yalnız Türkiyə və Azərbaycan üçün deyil, regionun digər ölkələri və Avropa İttifaqı üçün də yeni imkanlar yaradıb. TANAP bir çox ölkəni və beynəlxalq enerji şirkətlərini bir araya gətirməklə, enerji əməkdaşlığı baxımından misilsiz bir platforma formalaşdırıb. Dəyəri 40 milyard dollardan artıq olan və Avropanın ən böyük enerji infrastruktur təşəbbüslərindən biri kimi qiymətləndirilən "Cənub Qaz Dəhlizi" Azərbaycanın təşəbbüsü və liderliyi ilə uğurla reallaşdırılıb. Bu uğur ölkəmizə imkan verib ki, təbii qaz ehtiyatlarını qısa, təhlükəsiz və alternativ yollarla dünya bazarlarına çıxarsın.

Bu layihə yalnız iqtisadi deyil, eyni zamanda strateji xarakter daşıyır. Enerji təhlükəsizliyi bu gün hər bir ölkənin milli təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilib. "Cənub Qaz Dəhlizi" həm yeni enerji yolları yaradıb, həm də alternativ enerji mənbələrinin mövcudluğunu təmin edib. Layihə enerji şaxələndirilməsinə və regionun enerji təhlükəsizliyinə mühüm töhfə verib. "Cənub Qaz Dəhlizi" Azərbaycanın qlobal enerji bazarındakı rolunu daha da möhkəmləndirib. Layihə ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyini gücləndirib, beynəlxalq nüfuzunu artırıb və strateji əməkdaşlıq əlaqələrini dərinləşdirib. Azərbaycanın bu sahədə atdığı addımlar enerji diplomatiyasında yeni bir dövrün başlanğıcını qoyub. TANAP və "Cənub Qaz Dəhlizi" kimi layihələr sübut edir ki, güclü siyasi iradə, dayanıqlı tərəfdaşlıq və milli maraqlara əsaslanan uzaqgörən strategiya regionda sabitlik və rifah üçün ən mühüm zəmin ola bilər.

**Musa BAĞIRLI,**
**"Respublika".**